**DOI:** https://doi.org/10.59849/2957-3882.2023.1.140
**UOT: 327**

# SİNQAPUR-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNİN İNKİŞAF DİNAMİKASI VƏ PERSPEKTİVLƏRİ

**Əzizə GÜLÜMCANLI***

***Açar sözlər:*** *Sinqapur, Azərbaycan, qarşılıqlı əlaqələr, inteqrasiya*

## XÜLASƏ

Məqalə Sinqapur və Azərbaycan arasında ikitərəfli münasibətlərin formalaşması və hazırkı vəziyyətinə həsr olunub. Müəllif ikitərəfli münasibətlərin qurulmasında hər iki ölkəni maraqlandıran əsas nüansları təhlil və diplomatik münasibətlərin inkişaf vektorlarını müəyyən edib. Məqalədə qeyd olunur ki, iki ölkə arasında əlaqələrin intensivləşməsində həm biznes strukturlarının, həm də dövlət institutlarının rolu böyükdür. İkitərəfli münasibətlərin gələcək inkişaf vektorları nəzərdən keçirilir.

Sinqapur və Azərbaycan arasında ilk diplomatik əlaqələr 1994-cü ilin 15 avqust tarixində qurulmuşdur [1, 63]. Qarşılıqlı olaraq ölkələrimiz arasında rəsmi səfirliyin açılmamasına baxmayaraq diplomatik əlaqələrimizin intensivliyi yüksəlməkdədir. Bu, hər şeydən öncə istər Sinqapurun, istər Azərbaycanın beynəlxalq arenada tutduğu regional mərkəz rolu ilə bağlıdır. Azərbaycan və Sinqapur xarici siyasətində məhz regional liderlərlə intensiv diplomatik münasibətlərin qurulmasında maraqlıdırlar. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın İndoneziyada yerləşən səfirliyi eyni zamanda Sinqapurda ölkəmizi rəsmi təmsil edir. Bu isə bir daha onu deməyə əsas verir ki, Azərbaycanın xarici siyasətində Sinqapurla ikitərəfli əlaqələrin xarakteri ölkəmizin bütöv formada Cənub-Şərqi Asiya regionu ilə bağlı maraqları ilə şərtlənir.

Sinqapur və Azərbaycan arasında qarşılıqlı əlaqələrin təhlilini aparmaq üçün Cənubi Qafqaz və Cənub Şərqi Asiya regionu arasında qarşılıqlı maraq doğuran əsas amilləri qeyd etmək lazımdır.

Şərqi və Cənub-Şərqi Asiya regionu ölkələri - İndoneziya, Filippin, Sinqapur, Malayziya, Tayland, Bruney, Vyetnam, Kamboca kimi dövlətlər xüsusilə son 25 ildə dünya bazarında öz yerlərini möhkəmləndirirlər. Əsasən daha çox əmək və resurs tələb edən istehsalatla məşğul olan bu ölkələr üçün də yüksək texnologiyaların tətbiqində Yaponiyanın ardınca sürətli bir sıçrayışa nail olmaları meyarı xarakterikdir. Şərqi və Cənub-Şərqi Asiya dövlətləri dünya istehsalında öz paylarını 1975-ci ildəki 4%-dən, 1995-ci ildə 13%-ə, 2005-ci ildə isə 15%-ə çatdırmışdır. Bu ölkələr xarici aləmdən ildə idxal etdikləri məhsuldan təxminən 30 milyard dollarlıq artıq məhsul ixrac edirlər. Bu rəqəm təxminən Aİ-nin idxal və ixrac əməliyyatlarındakı saldosuna bərabərdir.

Bu dövlətləri qlobal iqtisadiyyatda fərqləndirən digər xüsusiyyət onların dünya keyfiyyətini gözləməklə daha ucuz, keyfiyyətli əmtəə istehsal etmək bacarığı və liberal iqtisadiyyat qurmaları hesab olunur. Məhz elə bunun nəticəsidir ki, onlar qlobal dünya bazarlarında Avropa və Amerika istehsalçılarına ciddi rəqabət yaradaraq onları daxili bazarlarından sıxışdırmağa nail olublar.

Regionun inkişafına təsir göstərən amillərdən biri də ölkələrin inkişafa lazım olan prioritet sahələrini düzgün müəyyənləşdirməsi hesab olunur [9].

* *AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*e-mail: ezizeayaz@gmail.com*

Təbii ki, çox zaman bu ölkələrin inkişaf vektorlarını ASEAN bloku çərçivəsində ümumiləşdirib ortaq məxrəc çıxardırlar. Bununla belə, dərindən təhlil onu deməyə əsas verir ki, region ölkələrinin hər biri özünəməxsus inkişaf vektorlarına görə fərqlənirlər.

Eyni fikri qarşı tərəf haqqında da demək mümkündür. Azərbaycan Cənubi Qafqaz regionunda lider və aparıcı mövqedə olduğu üçün Cənub-Şərqi Asiya ölkələrinin Qafqaz regionu üzrə təmsilçiləri rəsmi Bakı ilə əlaqələrin qurulmasına daha çox üstünlük verirlər. Bunun ümumi səbəbləri obyektivdir. Belə ki, iqtisadi və siyasi nüfuzuna görə regional lider olmaqla yanaşı Azərbaycan eyni zamanda Asiyanın Avropaya açılan qapısıdır. Bundan başqa, Cənub-Şərqi Asiya ölkələri üçün Azərbaycan Asiya və Avropanın kəsişməsində şərq-qərb və cənub-şərq dəhlizlərinin kəsişdiyi nöqtədir.

Xəzər dənizində sahib olduğu karbohidrogen yataqları Cənub-Şərqi Asiya ölkələri üçün faydalı investisiya qoyuluşu layihələri baxımından maraqlı hesab edilir. Son illərdə Çinin maliyyələşdirdiyi "Bir kəmər-bir yol" logistika tranzit xəttinin Azərbaycandan keçməsi Cənub-Şərqi Asiya ölkələrini məhz ölkəmizlə iqtisadi və siyasi əlaqələri gücləndirməyə sövq edir. Bütün bunlarla yanaşı onu da qeyd etmək lazımdır ki, Azərbaycan Cənub-Şərqi Asiya ölkələri üçün hər şeydən öncə bir islam dövlətidir.

Sinqapur bu region ölkələri arasında xüsusilə seçilir. Belə ki, bu ölkə regionda praktiki olaraq fiziki imkanlarının məhdudluğu fonunda bir çox göstəricilərinə görə nüfuzlu beynəlxalq təşkilatların müxtəlif parametrlər üzrə reytinqlərində ilk yerlərdən birini tutur, ABŞ və Avropanın inkişaf etmiş ölkələri ilə rəqabət aparır. Bu mənzərəyə aydınlıq gətirmək üçün son illərin bir sıra göstəricilərini qeyd etmək lazımdır. 2019-cu ilin Dünya Bankının Doing Business Report hesabatına görə dünyada 2-ci yerdə, 2019-cu ilin iqtisadi azadlıq indeksinə görə dünyada 2-ci yerdə, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə dünyada 2-ci yerdə, Global Information Technology Report 2018-ə görə dünyada 1-ci yerdə, Vətəndaşlarının rifah halı indeksinə görə dünyada 3-cü yerdə (2018), İnsan kapitalı indeksinə görə (2018) dünyada 1-ci yerdə, elektron hökumətin inkişafı indeksi üzrə (2018) dünyada 7-ci yerdə, Qadınların azad bizneslə məşğul olma imkanlarına görə (Index of Women Entepreneurs, 2019) dünyada 8-ci yerdə, Beynəlxalq inkişafın idarə olunması indeksinə görə dünyada birinci yerdə (2019) durur [15].

Müasir Sinqapurun inkişafı "Sinqapur möcüzəsi" adını daşıyır. 2018-ci ilin göstəricilərinə görə, Sinqapurda ÜDM (ümumdaxili milli məhsulun) həcmi illik artım tempi 40 mlrd ABŞ dolları olmaqla 364 mlrd ABŞ dollarına çatmışdır. 2018-ci ildə ÜDM-in adambaşına düşən pay göstəricisinə görə (101387 ABŞ dolları) Sinqapur dünyada 4-cü yerdə durur. 2019-cu ildə bu ölkəyə qoyulan xarici investisiyaların həcmi 40 mlrd ABŞ dolları həcmində olmuşdur. Ölkədən ixrac olunan məhsulların ümumi dəyəri 44 mlrd dollar, ölkəyə idxal olunan məhsulların dəyəri 40 mlrd dollar həcmində göstərilir. 2019-cu ildə ölkədə baza inflyasiyanın həcmi 0% olmuşdur. Ölkə üzrə işsizliyin həcmi cəmi 2,3% (2019) təşkil edir [16]. Dünyanın inkişaf etməkdə olan ölkələri qrupuna daxil olan Sinqapur üçün bu iqtisadi göstəricilər təəccüb və maraq doğurur.

Sinqapuru Azərbaycanla beynəlxalq əməkdaşlığa sövq edən əsas amillərdən biri ölkəmizin regional və qlobal tranzit layihələrinin son dayaq nöqtəsi və şaxələndirmə qovşağı olmasıdır. Sinqapur Çin kommunist partiyasının birinci katibi Si Tzinpinin 2013-cü ildə təklif etdiyi "bir kəmər - bir yol" layihəsinin aktiv investorlarından biri olaraq çıxış edir. 2019-cu ilin aprelində Çində layihə iştirakçısı dövlətlərin görüşündə iştirak edən Sinqapurun baş naziri Li Syan Pin "The Streits Times" jurnalının müxbirinə verdiyi müsahibədə qeyd edir ki, "Sinqapur Çinin ərazisində ən böyük investorlardan biridir. Çinin region üzrə reallaşdırmaq istədiyi bütün layihələri də maliyyələşdirməyə hazırdır. Söhbət, o cümlədən "bir kəmər - bir yol" layihəsindən gedir [17]". Burada çox vacib bir məqamı da qeyd etmək lazımdır. Sinqapurun maliyyə dəstəyi ilə Çin və Cənub-Şərqi Asiya və o cümlədən, Okeaniya ölkələri arasında 2015-ci ildən başlayaraq Çuntsin nəqliyyat koridorunun qurulması üzrə iş gedir. Bu koridor Çinin azad iqtisadi zona zolağına daxil olan qərb regionlarını Cənub-Şərqi Asiyanın mühüm iqtisadi ticarət xətləri ilə birləşdirməyə xidmət edir [17]. 2019-cu ildən Sinqapur Çini bu koridoru "Bir kəmər - bir yol" tranzit xətti ilə birləşdirməyə təşviq edir. Aparılan intensiv danışıqlarda Sinqapur bu layihənin maliyyələşməsini təklif edir. Bu bir daha Sinqapurun qeyd edilən tranzit layihəsinə

marağını sübut edir. Bu gün Azərbaycan üçün həyati əhəmiyyətə malik olan “Bir kəmər - bir yol” layihəsində Sinqapurun iştirakı adıçəkilən tranzit xəttinin ASEAN blokunun ticarət şəbəkəsi ilə birləşməsi perspektivinə malikdir. İstisna deyil ki, xətt üzrə daşınacaq məhsulların gələcək logistik mərkəzlərindən biri kimi yaxın illərdə Azərbaycan Sinqapur şirkətlərinin ölkəmizdə xüsusi tranzit logistika layihələrinin maliyyələşməsində yaxından iştirakını müşahidə etsin.

Qeyd edildiyi kimi, Azərbaycan və Sinqapur arasında ilk diplomatik əlaqələrin 1994-cü ildən qurulmasına baxmayaraq, iki ölkə arasında qarşılıqlı əlaqələr 2012-ci ildən sonra intensivləşməyə başlamışdır. Sinqapur Azərbaycan əlaqələrinin inkişafında iki əsas vektor mövcuddur: ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində. Qeyd etmək lazımdır ki, ikitərəfli səviyyədə Azərbaycan və Sinqapur münasibətləri əsasən iqtisadi xarakter daşıyır. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 2022-ci ilin sentyabr ayında Nyu-Yorkda keçirilən yüksək səviyyəli görüşlər zamanı Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla ikitərəfli görüşdə Sinqapurun xarici işlər naziri Vivian Balakrişnan xüsusilə vurğulayır ki, Sinqapur üçün Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi, hər şeydən öncə iqtisadi yatırımlar baxımından önəm daşıyır [7]. Onu da qeyd etmək lazımdır ki, Sinqapur şirkətləri XX əsrin 90-cı illərinin ortalarından Azərbaycana maraq göstərir və Xəzər hövzəsi ölkəsi kimi bir sıra layihələrə yatırım etmişlər. 1997-ci ildə Sinqapurun “Keppel Offshore and Marine” şirkəti Azərbaycan Dövlət Neft Şirkəti və Azərbaycan İnvestisiya Şirkəti ilə 52 hektar sahəsi olan yeni gəmiqayırma zavodu və tərsanənin inşasına, idarə olunmasına dair əməkdaşlıq haqqında saziş imzalamışdır. Eyni zamanda, “Keppel” şirkəti ARDNŞ ilə birgə 1997-ci ildə Xəzər Gəmiqayırma Şirkətini yaradıblar. Bu, Xəzər regionunda ilk beynəlxalq neft-qazma qurğuları, təmiri və modernləşdirilməsi üzrə zavod olmuşdur. “Surbana Corporation”, “Sembcorp” və “Franklin Offshore Group” kimi bir sıra Sinqapur şirkətləri də Azərbaycanda müxtəlif layihələrdə iştirak ediblər [10, 251].

Hesab edilir ki, Azərbaycan və Sinqapur arasında ikitərəfli əlaqələrin intensiv şəkil almasının başlanğıc nöqtəsi 2010-cu ildir. 2010-cu ilin mart ayında Azərbaycanın fövqəladə hallar naziri K.Heydərov İndoneziya, Malaziya və Sinqapurda işgüzar səfərdə olur. Bu səfər iki dövlət rəsmilərinin ilk birbaşa təması hesab edilə bilər. 2010-cu ildə ilk dəfə Sinqapurun xarici işlər naziri Corc Younq-Bun Eo Azərbaycana rəsmi səfər etmişdir. Bu görüşün əhəmiyyəti ondadır ki, ilk dəfə olaraq Azərbaycan və Sinqapur arasında qarşılıqlı əlaqələrin vektorları müəyyən edilmişdir. Məhz bu səfər zamanı Azərbaycanda Sinqapurun “Keppel” şirkəti tərəfindən tikilən gəmiqayırma zavodunun təməlqoyma mərasimi həyata keçirilmişdir.

Azərbaycan və Sinqapur münasibətlərinin yaxınlaşmasına Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin 2012-ci ildə bu ölkəyə baş tutan səfərinin xüsusi əhəmiyyəti var. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin şərəfinə verilən rəsmi nahar zamanı çıxış edən Sinqapur prezidenti Toni Tan beynəlxalq arenada mövqe baxımından Sinqapuru və Azərbaycanı yaxınlaşdıran əsas amillərdən biri kimi hər iki dövlətin ərazi və inkişaf baxımından daha güclü dövlətlərlə əhatə olunmasını göstərir: “Daha iri dövlətlərlə əhatə olunmuş kiçik ölkələr kimi, biz beynəlxalq təşkilatların və çoxtərəfli forumların əhəmiyyətini alqışlayırıq” [2].

Sinqapur ümumiyyətlə xarici siyasətində “yumşaq güc” tərəfdarı olduğu üçün ölkənin beynəlxalq nüfuzunun məhz beynəlxalq təşkilatlar vasitəsilə gücləndirməyə üstünlük verir. Bu ölkənin xarici siyasətində ənənəvi strategiya belədir ki, istənilən dövlətlə beynəlxalq təşkilatlar çərçivəsində dialoq, qarşılıqlı əlaqələrin yaxud müqavilələrin beynəlxalq hüquqla zəmanətlənməsi deməkdir. Çıxışında Sinqapur Prezidenti bu məsələyə də toxunur. O qeyd edir ki, Azərbaycan və Sinqapur arasında əlaqələrin güclənməsi işində beynəlxalq təşkilatların xüsusi rolu var. Həqiqətən, o zamanlar Sinqapur beynəlxalq təşkilatlar və əsasən, “Qoşulmama hərəkatı” çərçivəsində və o cümlədən, BMT-də bu ölkə ilə sıx əməkdaşlıq edirdi və Azərbaycan tərəfindən siyasi əhəmiyyət daşıyan bir çox məsələlərdə Sinqapurun dəstəyini almışdı. Bu, eyni zamanda Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərarlara aiddir. Belə ki, münaqişəyə dair BMT-nin təhlükəsizlik Şurasının bütün qətnamələrinin qəbulunda Sinqapur Azərbaycanın xeyrinə səs verib. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası 26 may 2011-ci il tarixində İndoneziyanın Bali adasında

Hərəkata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək, QH-yə tam hüquqlu üzv qəbul olunmuşdur [8].

Çıxışında Sinqapur prezidenti bir çox məsələlərdə iki ölkə arasında paralellər aparır. Bu paralellər təkcə iqtisadi sferanı əhatə etmir. O qeyd edir ki, Sinqapur və Azərbaycan öz etnik dini landşaftının müxtəlifliyi ilə seçilir. İstər Sinqapur, istər Azərbaycan müxtəlif dini baxışların və bu baxışlara sahib icmaların, o cümlədən etnik qrupların birgə yaşadığı, mədəniyyətində multikultural dəyərlər daşıyan ölkələrdir. Təsadüfi deyil ki, əhalisinin 67%-i çinli olan Sinqapurda dörd rəsmi dövlət dili var.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Sinqapur səfəri zamanı çıxışında bu ölkə ilə diplomatik əlaqələrin bir sıra vektorlarını qeyd edir.

Birincisi, Sinqapur Azərbaycan üçün istər siyasi, istər iqtisadi, istər sosial sferada inkişaf etalonlarından biridir. Sinqapurun qeyd edilən sahələrdə, xüsusən iqtisadi sferada inkişaf göstəriciləri onun dünyada "Sinqapur möcüsəzi" kimi tanınan modelini Azərbaycan üçün maraqlı edir. Bizim üçün maraq doğuran iqtisadi əməkdaşlıq sferalarından biri məhz qarşılıqlı investisiya qoyuluşlarının həcminin artırılmasıdır. Prezident qeyd edir: "Xalqlarımız və ölkələrimiz arasında bir çox bənzərliklər vardır. Azərbaycan da inkişaf etməkdə olan müstəqil ölkədir. Bizim üçün müstəqillik illərində keçid dövrü güclü dövlətçilik, eyni zamanda, bazar iqtisadiyyatı və yaxşı investisiya imkanları deməkdir. Ölkənizin nümunəsi yenicə müstəqil olan ölkələr üçün olduqca cəlbedicidir" [12].

Sinqapur və Azərbaycan münasibətlərinin başqa bir vektorunu hər iki ölkə üçün xarakterik olan multikultural dəyərlərin inkişafı təcrübəsinin mübadiləsinin təşkilidir. Bunu yuxarıda qeyd etdiyimiz kimi, görüş zamanı həm Sinqapur, həm də Azərbaycan prezidenti qeyd edir: "Sizin də qeyd etdiyiniz kimi, ölkələrimiz çoxmədəniyyətlidir. Bu, ölkələrimizin əldə etdiyi ən böyük müsbət keyfiyyətlərdən biridir. Müxtəlif etnik və dini qrupların nümayəndələrinin sülh şəraitində birgə yaşaması ənənələri regionda, həqiqətən, olduqca xüsusi bir mühit yaradır. Sinqapur kimi Azərbaycan da multikulturalizm prinsiplərinə yüksək dəyər verir. Buna görə də bizim cəmiyyətlərimiz bütün insanlara öz iradələrini ifadə etməyə, eləcə də sülh və əmin-amanlıq şəraitində yaşamağa imkanlar yaradır" [1]. Təsadüfi deyil ki, 2016-cı ilin iyul ayında Sinqapurda Xarici İşlər Nazirliyi və Rajaratnam Beynəlxalq Əlaqələr Məktəbinin təşkil etdiyi "Dini tolerantlığın təşviq edilməsi və gücləndirilməsi məqsədilə ən yaxşı təcrübələr və siyasətlər üzrə regionlararası perspektivlər" adlı beynəlxalq konfransda vurğulanmışdır ki, Azərbaycan, Sinqapur, ABŞ və Malaziya təcrübəsi dünya ölkələri üçün xüsusi önəm daşıyır [12].

Konfrans çərçivəsində aparılan müzakirələrin, oxunan məruzələrin təhlili göstərdi ki, Sinqapur, Amerika, İndoneziya, Malayziya və Azərbaycanda mədəni müxtəlifliyin idarə edilməsi modeli mahiyyət etibarı ilə bir-birindən fərqlənmir - bu ölkələrin hamısında dinindən, mənsubiyyətindən, milliyyətindən asılı olmayaraq, hər kəsin eyni çətir altında yaşamaq, təhsil almaq və işləmək hüquqları qanunvericilik çərçivəsində təmin edilmişdir [12].

Azərbaycan və Sinqapur arasında sırf siyasi əlaqələrin başlıca platformasını beynəlxalq təşkilatlar təşkil edir. Prezident İlham Əliyev xüsusi vurğulayır ki, Azərbaycan üçün Sinqapur məhz ona görə əhəmiyyətli siyasi tərəfdaşdır ki, bütün beynəlxalq təşkilatlarda Azərbaycan üçün əhəmiyyət daşıyan məsələlərdə və xüsusən Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həlledici sənədlərin qəbulu prosesində Azərbaycana dəstək vermiş və Azərbaycanın yanında olmuşdur. Eyni zamanda ölkə başçısının çıxışından məlum olur ki, Azərbaycan gələcək perspektivdə də Sinqapurla qarşılıqlı əlaqələri məhz beynəlxalq təşkilatlar səviyyəsində inkişaf etdirməkdə maraqlıdır.

Təbii ki, Azərbaycan və Sinqapur arasında beynəlxalq təşkilatlar səviyyəsində qarşılıqlı əlaqələrin gücləndirilməsindən söhbət açarkən ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Sinqapurun Qoşulmama hərəkatında Azərbaycana verdiyi dəstəyi mütləq qeyd etmək lazımdır. Azərbaycan Qoşulmama Hərəkatına 2011-ci ilin 26 may tarixində üzv dövlətlərin yekdilliklə razılığı əsasında üzv olmuşdur. Hərəkat daxilində Azərbaycan özünün ərazi bütövlüyünün tanınması və bərpası ilə bağlı gərgin iş aparmış və üzv dövlətlərin dəstəyini almışdır. İlk dəfə Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xüsusi bənd QH təşkilatının 10 may 2012-ci ildə Misirin Şarm Əl-Şeyx

şəhərində Nazirlər səviyyəsində görüşünün yekun iclası ilə bağlı sənədə salınmışdır [3]. Bu bəndin salınmasında Azərbaycana dəstək verən ilk ölkələrdən biri Sinqapur olmuşdur.

30-31 avqust 2012-ci tarixlərində İran İslam Respublikasının Tehran şəhərində keçirilən QH Dövlət və Hökumət Başçılarının XVI Zirvə Görüşündə qəbul edilmiş yekun sənədin 391-ci maddəsi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasına həsr edilmişdir və burada da Sinqapur öz dəstəyini göstərmişdir. Azərbaycan Sinqapur tərəfindən eyni dəstəyi QH-nın növbəti 2014 Əlcəzair, 2018 Bakı və 2019 Karakas görüşlərində almışdır.

Bakı Sammiti ilə Hərəkatda sədrlik 2019-2022-ci illər üzrə Azərbaycan Respublikasına keçmişdir. Hərəkatın növbəti sədri olacaq Uqandanın sədrliyi 1 il gec təhvil ala biləcəyini ifadə etməsindən sonra QH üzv dövlətləri, Hərəkata uğurlu sədrliyini nəzərə alaraq, Azərbaycanın əlavə 1 il müddətinə Hərəkata sədrlik etməsi ilə bağlı ölkəmizə müraciət etmiş, Azərbaycan tərəfi də Hərəkatın fundamental prinsiplərinə və dəyərlərinə olan sadiqliyini və mürəkkəb dövrdə Hərəkata səmərəli sədrliklə bağlı qazandığı dəyərli təcrübəni nəzərə alaraq, bu müraciətə müsbət cavab vermişdir. Beləliklə, Azərbaycanın QH-yə sədrliyi 2023-cü ilə qədər uzadılmışdır [3]. Təşkilata rəhbərliklə bağlı verilən qərarın əsas təşəbbüskarlarından biri məhz Sinqapur olmuşdur.

Sinqapur və Azərbaycan arasında rəsmi səviyyədə münasibətlərin dərinləşməsi və səfərlərin intensivliyi əslində dövlət deyil, eyni zamanda biznes subyektləri arasında da qarşılıqlı əlaqələrin dinamikasına təsir göstərə bilmişdir. 2012-ci ildən başlayaraq Sinqapur ölkəmizdə bir sıra sferalarda mütərəqqi layihələrin həyata keçirilməsində yaxından iştirak edir. Eyni zamanda Azərbaycan şirkətləri də Sinqapurda aktiv fəaliyyətdədir. Azərbaycanın Sinqapurda biznes fəaliyyəti ilə məşğul olan ilk pioner şirkətlərindən biri SOCAR olmuşdur. SOCAR Cənub Şərqi Asiya ölkələrində neft və neft məhsullarının alqı-satqı işində iştirak etmək üçün Sinqapuru strateji mərkəz kimi qiymətləndirmişdir. Bu səbəbdən 2008-ci ildə Cenevrədə təsis olunan SOCAR Trading şirkətinin Cənub-Şərqi Asiya ölkələri üzrə əsas ofisi məhz Sinqapurda açılmışdır. 2010-cu ildə SOCAR Sinqapurda özünün "Fujairah" neft terminalını tikib başa çatdırmışdır [14]. Bundan başqa, SOCAR Trading Cənub-Şərqi Asiya və Şərqi Asiya ölkələri ilə ümumilikdə şirkətin əlaqələrinin qurulması işində vasitəçi missiyasını da həyata keçirir. Buna misal olaraq SOCAR və Cənubi Koreyanın Milli Neft Korporasiyası arasında neft məhsullarının Koreyanın neft anbarlarında saxlanmasına dair müqavilənin imzalanmasında SOCAR-ın Sinqapur ofisi vasitəçilik etmişdir [5].

Ümumilikdə SOCAR Sinqapur şirkətlərinin Azərbaycanda bir çox sahələr üzrə sərmayə qoyuluşunun həyata keçirilməsində əlaqələndirici funksiyanı yerinə yetirmişdir. Sinqapur şirkətlərinin Azərbaycanda xüsusi əhəmiyyətli sənaye sahələrinə maraq göstərməsində SOCAR-ın rolu əvəzsizdir. 2022-ci ildə SOCAR-ın təşəbbüsü ilə Sinqapurun "İndorama İnvestments Limited" şirkəti və Sumqayıtın Sənaye Parkı arasında Amonium Kübrə Zavodunun tikintisi ilə bağlı müqavilə imzalanmışdır [13]. Bu zavodun tikilməsi Azərbaycan üçün olduqca önəmlidir. Belə ki, Rusiya-Ukrayna müharibəsi göstərdi ki, Avropanın gübrə tələbatının 4/3 hissəsi məhz Rusiya tərəfindən qarşılanırmış. Azərbaycanda belə bir zavodun tikintisi üçün əlverişli şərait var. Bu isə bizə istər daxili tələbatı ödəməyə, eyni zamanda xaricə məhsul ixrac etməyə imkan verməlidir.

Azərbaycan və Sinqapur arasında biznes subyektləri arasında qarşılıqlı əlaqələrin yaradılması və onların ölkələrin iqtisadiyyatına investisiya qoyuluşunun sövq edilməsi işində Azərbaycanda İxracın və investisiyaların Təşviqi Fondunun (AZPROMO) təşəbbüsü ilə 2015-ci ilin aprelində Bakıda keçirilən Azərbaycan-Sinqapur biznes forumunun xüsusi əhəmiyyəti olmuşdur. Keçirilən foruma Sinqapurdan 50-yə yaxın biznes nümayəndəsi dəvət almışdır [4]. Keçirilən forum zamanı AZPROMO-nun icraçı direktoru Rüfət Məmmədov Azərbaycanda iqtisadi sektorda həyata keçirilən islahatların və iqtisadi sabitliyin dinamikası haqqında ətraflı məlumat vermiş və xarici investorları müxtəlif sahələrə investisiya qoyuluşuna dəvət etmişdir. Sinqapurun "Kenetics İnnovations" şirkətinin rəhbəri Ken Vong qeyd etmişdir ki, Sinqapurun biznes subyektləri üçün Azərbaycan müxtəlif sektorlara investisiya qoyuluşu baxımından olduqca maraqlı gəlir. Eyni zamanda, Azərbaycan sahibkarları üçün Sinqapurun biznes mühiti haqqında məlumat təqdimatı keçirilib.

Sinqapurun biznes subyektlərinin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoyuluşuna cəlb edilməsi Azərbaycanda dövlət səviyyəsində əhəmiyyət daşıyır. Belə ki, Azərbaycan hökuməti ölkədə məhz kimya, neft və İT sferasına sərmayə qoyuluşunda Sinqapur şirkətlərinin iştirakında maraqlıdır [6]. Belə ki, bu sahədə Sinqapurun böyük təcrübəsi və dünya bazarında kifayət qədər güclü mövqeyi var. Sinqapurun məhz bu sahələrin inkişafına sərmayə qoyması ölkə iqtisadiyyatının bu sektor üzrə regional mövqelərinin güclənməsinə xidmət edə bilər.

Sinqapur biznes subyektlərini ölkəyə cəlb edən əsas amillərdən biri Azərbaycanda yürüdülən iqtisadi siyasətin nəticələridir. Bu və ya digər xarici ölkə investorları hər zaman o ölkələri iqtisadi cəhətdən əlverişli hesab edir ki, orada qeyri-rezidentlər üçün bu və ya digər formada güzəştlər tətbiq olunsun, yaxud sərbəst fəaliyyət zonaları yaradılsın. Xatırlatmaq lazımdır ki, bu gün Azərbaycanda azad iqtisadi zonalar olmasa da ölkədə 4 mühüm sənaye parkı yaradılmışdır. Bura Sumqayıt Kimya Sənaye Parkı, Yüksək Texnologiyalar Parkı, Balaxanı Sənaye Parkı və Mingəçevir Sənaye Parkı daxildir. Sinqapur biznes nümayəndələri ilə keçirilən görüşlərdən məlum olur ki, onlar fəaliyyətini məhz bu iqtisadi zonalarda yerləşdirmək niyyətindədir.

2021-ci ilin noyabr ayından Sinqapur və Azərbaycan arasında yeni əməkdaşlıq istiqamətinin əsası qoyulmuşdur. İki ölkə arasında yeni əməkdaşlığın yeni istiqamətini kosmik tədqiqatlar təşkil edir. Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) Sinqapurun Infinite Orbits PTE Ltd. şirkəti ilə peyk xidmətlərinin göstərilməsinə dair strateji əməkdaşlıq müqaviləsi imzalayıb.

Müqaviləyə əsasən, tərəflər Azərbaycanda kosmik sənayenin genişləndirilməsi üçün peyklərin istehsalı və istismarını birgə inkişaf etdirəcəklər [18].

Bu əməkdaşlıq strateji biznes və əməliyyatlarda uzunmüddətli tərəfdaşlığın başlanğıcını və daim dəyişən biznes ehtiyaclarına və tələblərinə cavab verən yüksək keyfiyyətli, ucuz qiymətə peyklər istehsal etmək üçün istehsal proseslərinin inkişafını nəzərdə tutur.

Sinqapur bütövlükdə Azərbaycan üçün müasir inkişaf dinamikası baxımından və inkişaf vektorlarının istiqaməti baxımından örnək ola biləcək dövlətlərdən biridir. Təbii ki, qarşılıqlı münasibətlərin zəif tərəfi hər iki ölkənin rəsmi olaraq səfirliyinin olmamasıdır. Bu nüans Sinqapurun Azərbaycanla əlaqələrin genişləndirilməsi baxımından əsl maneələrdən biridir. Bununla belə, Azərbaycan tərəfi bu gün Sinqapurda dövlət səviyyəsində öz fəaliyyətini tənzimləməkdən ötrü ölkənin İndoneziyada yerləşən səfirliyinə bu ölkədə səfirlik funksiyası həyata keçirmək hüququ vermişdir. İki ölkə arasında münasibətlərin indiki inkişaf dinamikasının intensivliyi aşağı düşməsə, Sinqapurun yaxın gələcəkdə ölkəmizdə səfirlik təsis etməsi gözləniləndir.

Yuxarıda qeyd edilənlərə əsasən, belə nəticə çıxarmaq olar ki, əgər gerçəkləşməkdə olan "Bir kəmər - bir yol" layihəsi tam gücü ilə işə düşərsə, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi imzalanarsa və Zəngəzur koridoru çalışarsa, Azərbaycanın Avropa və Asiya ölkələri arasında iqtisadi və enerji xabına çevrilməsi şərtləri Sinqapuru Azərbaycanda dövlət səviyyəsində fəaliyyətini institusionallaşdırması fakta çevrilə bilər. Hazırda isə iki ölkə arasında qarşılıqlı əlaqələrin resurs imkanları genişlənməkdə davam edir və bir çox sahələrdə əməkdaşlığı perspektivdə nəzərdən keçirmək mümkündür. Belə sahələrdən biri 44 günlük Zəfər müharibəsi nəticəsində Azərbaycan tərəfindən geri qaytarılmış ərazilərdə bərpa-quruculuq və repatriasiya prosesinin realizəsidir ki, bu istiqamətdə işlərə Sinqapurun dəvət edilməsi perspektivdə baxıla bilər. Belə ki, bu gün Azərbaycan işğaldan azad edilmiş ərazilərdə pilot layihə kimi "ağıllı-smart kənd" və "ağıllı-şəhər"lər salmaq niyyətindədir. Bu sahədə ən böyük təcrübələrdən birinə məhz Sinqapur malikdir. Tətbiq edilən ən müasir texnologiyalar əsasında Sinqapur "smart polis" (şəhər dövlət) arealına çevrilmiş və bu baxımdan dünyanın ən təhlükəsiz yaşam mühitlərindən biri statusunu almışdır. Sinqapurun "Smart sosium" layihələrinin regiona gətirilməsi Azərbaycan üçün olduqca əlverişlidir.

Bundan başqa, Sinqapur dünyada elektron hökumətin inkişaf səviyyəsinə görə seçilir. Smart-hökumət layihələrinin tətbiqi baxımından Sinqapur dünyada ilk yerlərdən birini tutur. Hesab edilir ki, bu ölkədə dövlət idarəçiliyinə İKT-nin tətbiqi öz başlanğıcını XX əsrin 80-ci illərindən götürür. Elektron hökumət quruculuğu sahəsində yüksək nailiyyətlər əldə edən Sinqapur dünyada Elektron Dövlətin İnkişaf İndeksinə görə 12-ci [19], Korrupsiya Qavrama İndeksinə Görə 4-cü yerdə durur [20].

Bu göstəricilərə Azərbaycan praktiki olaraq 2017-ci ildən ildə 10 addım irəliləyərək hal-hazırda 83-cü yerdə qərarlaşmışdır. Yaxın illərdə Azərbaycanda elektron hökumət xidmətlərinin yeni vektorlarının inkişafı gözlənilləndir. Bu, əsasən miqrasiya sferasına və qeyri-rezidentlərə göstərilən xidmətlərin sferasının genişləndirilməsinə aid ola bilər. Qeyd edilən məsələlərdə Sinqapur təcrübəsinin istifadəsi Azərbaycan üçün optimal modellərdən biri ola bilər.

İT sferada liderlik edən Sinqapurun kibertəhlükəsizlik sahəsində uğurları da qeyd edilməlidir. Bu ölkə BMT çərçivəsində belə, kibertəhlükəsizlik məsələləri üzrə əsas təlimatçılardan biri hesab olunur. Sinqapurun bu sahədə təcrübəsi dünyanın inkişaf etmiş ölkələri üçün əsas nümunələrdən biridir. Azərbaycan bu sahədə də Sinqapurla əməkdaşlıq edə bilər.

**Nəticə**

Tədqiqatımızda Sinqapur və Azərbaycan münasibətlərinin keçmişi və bu günü ətraflı şəkildə təhlil edilir, bu əlaqələrin təhlilini aparmaq üçün Cənub-Şərqi Asiya regionu və Cənubi Qafqaz arasında qarşılıqlı maraq doğuran əsas amilləri qeyd etmək lazımdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası. Azərbaycan beynəlxalq aləmdə. Səh 63. Elektron resurs: https://files.preslib.az/projects/azerbaijan/gl9.pdf
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sinqapur Respublikasına dövlət səfəri: Elektron resurs https://www.azerbaijan-news.az/view-17727/Az%C9%99rbaycan-Respublikas%C4%B1n%C4%B1n-Prezidenti-%C4%B0lham-%C6%8Fliyevin-Sinqapur-Respublikas%C4%B1na-d%C3%B6vl%C9%99t-s%C9%99f%C9%99ri
3. Azərbaycan — Qoşulmama Hərəkati. Elektron Resurs: https://azerbaijan.az/related-information/196
4. Azərbaycan-Sinqapur biznes forumu keçirilib. Elektron resurs: https://sia.az/az/news/economy/471871.html
5. Bakıda "SOCAR Trading" şirkətinin Sinqapur ofisi və Koreya Milli Neft Korporasiyası arasında xam neftin saxlanılmasına dair müqavilə imzalanmışdır. Elektron resurs: https://azertag.az/xeber/Bakida_SOCAR_Trading_sirketinin_Sinqapur_ofisi_ve_Koreya_Milli_Neft_Korporasiyasi_arasinda_xam_neftin_saxlanilmasina_dair_muqavile_imzalan misdir-535227
6. Bakıdan Sinqapura dəvət. Elektron resurs: https://news.milli.az/economy/335201.html
7. Ceyhun Bayramov Sinqapurun xarici işlər naziri ilə görüşüb Elektron resurs: https://apa.az/az/foreign-policy/ceyhun-bayramov-sinqapurun-xarici-isler-naziri-ile-gorusub-723890
8. Qoşulmama Hərəkatı (QH) Elektron resurs: https://www.mfa.gov.az/az/category/beynelxalq-teskilatlar/qosulmama-herekati-qh
9. Ömərov V. Azərbaycanın Şərqi və Cənub Şərqi Asiya ölkələri (İndoneziya, Cənubi Koreya, Tailand və s.) ilə əməkdaşlığı - http://sia.az/az/news/interesting/337929
10. Rza Talıbov. Asiya ölkələri beynəlxalq münasibətlər sistemində Bakı, «Elm və təhsil», 2015, 312 səh. 251 s.
11. Sinqapur kimi Azərbaycan da multikulturalizm prinsiplərinə yüksək dəyər verir. Elektron resurs: https://www.yeniazerbaycan.com/Gundem_e10768_az.html
12. Sinqapur konfransı: Azərbaycan tolerantlığın qorunduğu ən yaxşı nümunələr sırasında Elektron resurs: https://scwra.gov.az/az/view/news/1913/sinqapur-konfransi-azerbaycan-tolerantligin-qorundugu-en-yaxshi-numuneler-sirasinda
13. Sinqapur şirkəti Azərbaycanda zavod tikmək istəyir. Elektron resurs: https://abc.az/en/news/103339

14. SOCAR Trading" Asiya-Sakit Okean regionunda əməliyyatları genişləndirir. Elektron resurs: https://az.trend.az/business/energy/1783466.html
15. Yu. Bykov, K. D. Solntsev. The Image Of Singapore Abroad: Formation Mechanisms, Role And Significance// Vestnik of the Mari state University Chapter "History. Law". 2019, Vol. 5, No. 4
16. Сингапур – Gross domestic product per capita based on purchasing-power-parity in current prices // Мировой атлас данных. URL: https://knoema.ru/atlas/Сингапур/ВВП-по-ППСна-душу-населения
17. Сингапур намерен стать одним из главных инвесторов проекта "Один пояс - один путь"//Elektron resurs:
18. Azərbaycanla Sinqapur peyklərin istehsalını birgə inkişaf etdirəcəklər. https://xeberler.az/new/details/azerbaycanla-sinqapur-peyklerin-istehsalini-birge-inkisaf-etdirecekler--27208.htm
19. UN E-Government Survey 2022. Elektron resurs: https://ikisahil.az/post/135281-sinqapurda-ilk-defe-azerbaycanin-turizm-potensiali-teblig-edilib
    Corruption Perceptions Index elektron Elektron resurs: https://www.transparency.org/en/cpi/2021?gclid=CjwKCAiAkfucBhBBEiwAFjbkrxduVuujyMxMT8JgAlLsfzAby63tAS7OJMhkzjGwE0I9wqQ3nuP_KxoCqMUQAvD_BwE


## РЕЗЮМЕ

***Азиза ГЮЛУМДЖАНЛЫ***

***Динамика и перспективы развития сингапурско-азербайджанских отношений***

***Ключевые слова:*** *Сингапур, Азербайджан, взаимосвязи, интеграция*

Статья посвящена становлению и современному состоянию двусторонних отношений между Сингапуром и Азербайджаном. Автор проанализировал основные нюансы, которые интересуют обе страны в налаживании двусторонних отношений. Определены векторы развития дипломатических отношений. В статье отмечается, что в интенсификации отношений двух стран велика роль как бизнес-структур, так и государственных институтов. Рассматриваются векторы дальнейшего развития двусторонних отношений.

## SUMMARY

***Aziza GULUMJANLI***

***Developmental Dynamics and Prospects of Singapore-Azerbaijan Relations***

***Keywords:*** *Singapore, Azerbaijan, interconnections, integration*

The article is devoted to the formation and current state of bilateral relations between Singapore and Azerbaijan. The author analyzed the main nuances that are of interest to both countries in establishing bilateral relations. Vectors of development of diplomatic relations are determined. The article notes that in the intensification of relations between the two countries, the role of both business structures and state institutions is great. Vectors of further development of bilateral relations are considered.